2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 298 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 22 fevral 2020-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Səlimov Kamal İlham oğlunun 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) daxil olmuş, adıçəkilən seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyinin mübahisələndirilməsinə, dairə seçki komissiyasının müvafiq qərarının ləğvinə, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasına dair müraciətini araşdıraraq **m ü ə y y ə n e t d i m:**

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq verildiyindən tərəfimdən icraata qəbul edilmiş, araşdırılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Namizəd tərəfindən müvafiq şikayət 57 saylı Kürdəmir seçki dairəsi dairə seçki komissiyasına Seçki Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətdə verildiyinə baxmayaraq, komissiya qanunun tələbinə əməl etməyərək həmin şikayətə baxmamış və bununla da hərəkətsizlik etmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci və 8-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Səlimov Kamal İlham oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 298 saylı müraciəti baxılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Seçki Məcəlləsinin 112-1.6.7-ci maddəsinin tələbləri dairə seçki komissiyasının vəzifəli şəxslərinin diqqətinə çatdırılsın.

3. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov